**Eltun Türkel**

***Göy üzündə Allahdan, yer üzündə günahdan çəkinərdi. Ürəyini yandıran közdən deyil, sözdən qorxardı. Odur ki, 90 illik ömründə sözlə qoşa addımladı, dost oldu, heç vaxt sinə qəfəsində əsir saxlamadı. Sözünə azadlıq verdi, sözün hüquqlarını müdafiə etdi.***

Ömrün ahıl çağında belə qələminə və əhdinə dönük çıxmadı. Hər yeni əsərini qələmə alanda itmiş oyuncağını tapan uşaq kimi sevinirdi. Özü ilə sözünün arasında qalmadan yaşandı Qərib Mehdi ömrü. Qeyri-adi təfəkkürə və təhkiyəyə malik idi. Bəlkə də, bundan irəli gəlirdi ki, yazdığı əsərlərdə yaratdığı obrazların oxucuya bəxş etdiyi acı təbəssümü. 01.11.2025-ci ildə "SON SÖZÜM" adlı ömür-gün yoldaşına həsr etdiyi yazısını qələmə aldı. O yazının son sətrləri belə idi. "Ünvanını bilirəm Cənnətməkan. Səni darıxmağa qoymayacağam. Tezliklə görüşərik..." Aradan 80 gün keçdi. Və budur 20.01.2026-cı il. Ömrü boyu sözün qulluğunda dayanan qocaman yazıçı Qərib Mehdi xatırladı ki, ilk dəfədir ki, sözə xəyanət etmək üzrədir. Dərhal sözünə sadiqlik nümayiş etdirib vədinə xilaf çıxmadı.

# Qərib Mehdiyə nekroloq əvəzi



Məni bağışla, BABA, mən sənin kimi sözümə sadiq qala bilmədim. Sənin 90 illik yubileyinə həsr etdiyim şeiri söz vermişdim ki, yubiley tədbirində söyləyəcəyəm. Vaxtından evvəl deməyə məcbur etdin məni gedişinlə. Ruhun şad olsun, söz dostu!

## *Yazıçı Qərib Mehdinin 90 illiyinə*

**Asta addımlarla yanaşır biri,
Yerişi ləngərli, yorğun görünür.
Əsdirir səmanı, titrədir yeri,
Ah çəkir, ahına vurğun görünür**

**Gözünə sədd çəkən nəm yüküdürmü,
Yoxsa, ahıllığı, qocalığımı?
Onu ləng yeridən qəm yüküdürmü,
Yoxsa, "Everest"-dən ucalığımı?**

**"İşıq"-dan doğulub, "Çinar günü"-ndə,
Bu yorğun yerişə özgəyəm, yadam.
Hələ çox zirvələr durub önündə,
Hələ fəth edəcək yazıçı adam.**

**Neçə könüllərdə yurd salıb, köçüb,
Gör neçə bağ salıb, neçə bar dərib.
Keçənlər köksünü ötürüb keçib,
Dodaqlar tərpənir:- "Qərib hey," Qərib.**